

# Duyğu yarpaqları

## Gəlmə görüşümə

Günəş öz yerində, Ay, öz yerində,
Nəyi var yerində böyük Yerin də.
Səni arasam da günün birində
Gözümdə hər tərəf çəndi, dumandı,
Gəlmə görüşümə, gəlmə, amandı.
Bir əlimdə əsa, birində çiçək,
Bu yolda günəşdən doyunca içək,
Uğursuz istəkdən, ürəyim, əl çək,
Günüm o gün deyil, halım yamandı,
Gəlmə görüşümə, gəlmə, amandı.
Sevgilim, eşqini ayrılan gündən
Əziz yadigar tək qoruyuram mən.
Sən həmin gözəlsən, şuxsan, təzəsən,
Gözlərim gözlükdən işıq umandı,
Gəlmə görüşümə, gəlmə, amandı.
Mənə adiləşər müqəddəs eşqin,
Susmağın yaxşıdır, nə danış, nə din,
Birdən gileylənər arvadım, ərin,
Bəlkə onların da qəlbi talandı,
Gəlmə görüşümə, gəlmə, amandı.
Sənsiz ömür-günüm ötüşdü darda,
Sən harda yaşadın ürəyim orda,
Mənimçün gecikdi hər il bahar da,
Vüsala yetməyim daha gümandı,
Gəlmə görüşümə, gəlmə, amandı.
Vəfasıza odlanmışam, yanmışam,
«Yalan dünya» deyənləri danmışam,
İndi anlamışam, indi qanmışam,
Dünya yalan, dünya yalan, yalandı,
Gəlmə görüşümə, gəlmə, amandı.

**Mehrəli MEHRƏLİYEV.**

## A MƏKTƏB

*Hərdən xatirələr çözələnəndə,*
*Sinif otağımız düşür yadıma.*
*Nəmli gözlərimə qəm ələnəndə,*
*Həsrətli bir ah da çatır dadıma.*
*Qalıb barmağımda təbaşir izi,*
*O qaçdı-qovdular çıxmır yadımdan.*
*Unuda bilmirəm bir gülər üzü,*
*Osa xoşlanmadı mənim adımdan.*
*Bir hərfi partama çox yazmışam mən,*
*Pərgarla, qələmlə belə də olub.*
*Tutmaq istəmişəm onun əlindən,*
*Heyf, dönüb gedib, gözlərim dolub.*
*Burda xatirələr qalıbdı həzin,*
*Mənim uşaqlığım ötüb keçibdi.*
*Hay-küylü həyətin, uzun dəhlizin,*
*Küləyi saçımı öpüb keçibdi.*
*İndi nə sən sənsən, nə də mən mənəm,*
*Sən də qocalmısan, mən də, a məktəb.*
*Ən yaxşı günlərim, dadlı günlərim,*
*Neynəyim, qalıbdı səndə, a məktəb.*

***Şahid NƏĞMƏKAR.***

## Bir dəfə…

Bir dəfə şahmat stolu arxasında toxundu əlin əlimə, baxışların dondu gözlərimdə.

Sənə nə oldu bu an? Heç bildinmi? Gözlərin qapandı sanki…

Qırov düşmüş saçlarımı görmədin daha.

Ömrün illərindən, aylarından hörülmüş sicimlə bağlanmış əl-qolumu görmədin daha.

Görmədin kipriklərimdən sallanmış buz salxımcıqlarını. Görmədin arzularımın çoxunu üreyimdəcə qətlə yetirərək günlərimi matəmə boyamış dünyadan incik, didərgin Ruhumu da.

…baxışların gözümdə dondu. Nəvaziş həsrətilə odlandı yanaqların. Saçların, çiyinlərin…

Toxunduğuyla möcüzəvi ilğımı yox edəcəyindən qorxurmuş kimi ağır-ağır sənə uzanmış qolumla içimə axdın, içimə doldun. İçimdə özünə bir həmyaşıd doğdun. Özüntək qəlbi həyat sevgisilə dolu.

Qapanmış gözlərin o yaşıdını gördü yalnız. Ona gülümsədin.

Təbəssümün içimi nura boyadı, çölüm kölgəyə büründü. İçim bayram edirkən çölüm pərişan, məyus…

Bayramdı deyə həmyaşıdın gedib bir dəstə nərgiz almaq istədi sənin üçün. Qırıla-qırıla qaldı mənim yaşıdım.

Dərdli günlərim sevinc yağmurlarına tutuldu. Tənha gecələr soyuq yatağım xəyalınla isindi. Dünyaya yenidən qayıtdım elə bil.

Sabah yenə gələcəkdin…

Gör neçə sabah keçir?.. Nə yaman uzunmuş o son gündən sabahların birinə uzanan yollar. Yoxsa bu yolların nəhayətsizliyində azdın, itdin? Yoxsa açıldı artıq qapanmış gözlərin?..

Xəbərin varmı, içimin səhrasında dolaşır indi dünyaya yenidən gəlmiş, qəlbinə həyat sevdası dolmuş, səndən doğulmuş həmyaşıdın. Dolaşır səfil-sərgərdan, yetim-yetim…

Eh, bu dünyada dərdim az imiş, dərd verənim az imiş. Sən də bir yandan, sən də bu cür?..

**Füzuli YAVƏR.**

## Qəbələ

Dağların, daşların əzəmətlidir,
Ətirli çörəyin bərəkətlidir,
Bu qədim diyarın çox qüdrətlidir.
Səni alqışlayaq biz gülə-gülə,
Mənim doğma elim, gözəl Qəbələ.
Hər anım, hər günüm xoş keçir burda,
Heç vaxt olmayasan çətində-darda,
Deyirəm həmişə bu gözəl yurda,
Hər eldən, obadan qonaqlar gələ,
Mənim doğma elim, gözəl Qəbələ.
Nohur gölü kimi məşhur gölün var,
Bir-birindən gözəl ayın, ilin var,
Ətirli çiçəyin, əlvan gülün var.
Şöhrətin düşübdür bil, dildən-dilə,
Mənim doğma elim, gözəl Qəbələ.
Burda İsmayıl bəy gəlib dünyaya,
Quşqonmaz qayalar ucalır aya.
Səndən ayrı düşüb getsək haraya,
Gələrik qoynuna verib əl-ələ,
Mənim doğma elim, gözəl Qəbələ.

**Mirhəsən AĞAYEV.**

## Anam yadıma düşdü

*Zirvələrdə qar gördüm,*
*Anam yadıma düşdü.*
*Harda analar gördüm*
*Anam yadıma düşdü.*
*Dərə keçib, dağ aşdım,*
*Çaylartək axdım, coşdum,*
*Vətən, sənə söz qoşdum,*
*Anam yadıma düşdü.*
*Bir layla səsi gəldi, -*
*Həyat nəğməsi kimi.*
*Bahar nəfəsi gəldi, -*
*Anam yadıma düşdü.*
*Bulaq olub çağladım,*
*Sözdən çələng bağladım.*
*Körpə kimi ağladım,*
*Anam yadıma düşdü,*
*Anam yadıma düşdü.*

***Məhəmməd ƏLİ.***





## Yollar

Uzanır hey ilan kimi,
Min bir səmtə gedən yollar.
Yüz insanın istəyini,
Bir həqiqət edən yollar.
Bu yollarda insanların,
Arzuları çatır başa.
Bu yollarda əl-elədir,
Neçə istək, sevgi qoşa.
Yol həsrəti, dağı yarmış,
Yol döyüşmüş, yol barışmış,
Yol intizar çəkən gözmüş,
Yol məhəbbət, yollar sözmüş.
Yol qohumluq, yollar körpü,
Yol möhkəmlik, yollar törpü,
Yol bir həsrət, neçə qəlbi,
Birləşdirər, ayırarmış.
Dərdli oxur çox ahəstə,
Gözlər yolda, könül xəstə,
Vətən üçün bircə dəstə,
Gül apara bilsəm, yollar?!
Fəxri, bu yol gözün dağı,
Həsrət qoydu bizi yağı,
Yollar keçir düzü, dağı,
Nisgil dolu, qəmli yollar…

**Fəxrəddin BABAYEV.**

## Hardasan

*Qəlbim sənin ilə vurur, döyünür,*
*Tək dostum, həyatım, hardasan indi?*
*Sənsiz hisslərim də yerlə sürünür,*
*Aslanım, qartalım hardasan indi?*
*Birgə oxuduq biz sevgi nəğməsin,*
*Təkcə sən eşitdin qəlbimin səsin.*
*Bax, necə sızlayır eşq xatirəsi,*
*Məlhəmim, dərmanım, hardasan indi?*
*Bir sözünə bəndəm, uçum, gəlim mən,*
*Mənasız həyatdan qaçım gəlim mən,*
*Qəlbimi qəlbinə açım gəlim mən,*
*Ay eşqi-pünhanım, hardasan indi?*

***Nargilə QAFAROVA.***

## Sən çağır məni

*“Gənclik şeirləri” silsiləsindən”*

Biz bir-birimizə könül vermişik,
Yamyaşıl bağlara sən çağır məni!
Sevinc də dadmışıq, qəm də görmüşük,
Yaxın-uzaqlara sən çağır məni!
Alı bulağından buzlu su içək,
Qaraçaydan keçək, Şonqardan keçək
O Qızılqayadan dərək gül-çiçək,
Səfalı dağlara sən çağır məni!
Bir başqa aləmdi çinar kölgəsi,
Sanki layla çalır quşların səsi...
Ürəyə dərmandı bülbül nəğməsi,
Çaya, çaylaqlara sən çağır məni!
Laza da gözəldi, Durca da gözəl,
Yonca da gözəldi, xalça da gözəl.
Rəfiqənlə qoşa Nohurgölə gəl,
Ayna bulaqlara sən çağır məni!
Sən dağlar qızısan, atan-anan var,
Xoşbəxtsən, halına mən tək yanan var!
Şakir Xəyal səndən ayrı dolanar?
Sərin yaylaqlara sən çağır məni!
Gülüm, getsən hara, sən çağır məni!

**Şakir XƏYAL.**

## Sev barı

Yaxşı yadımdadır o bahar çağı,
Eşqinlə odlandım, alışdım, yandım.
Sənə min könüldən vurulduğumçün,
Özümü dünyanın xoşbəxti sandım.
Meylimi mən sənə saldığım gündən
Hürkək baxışların canımı üzdü.
Sən cavab vermədin suallarıma,
Səbrim tükənsə də, ürəyim dözdü.
Hərdən görüşlərə gecikdikcə sən,
Sevən ürəyimi yaman dağladın.
Bax bu naz-qəmzənlə məni, ay gözəl,
Sən öz varlığına möhkəm bağladın.
Səni sevən gündən düşündüm ki, mən
Sevməmək günahdır sən tək ceyranı.
Emin gözlərinə çoxdan vurulub,
Günah deyildir ki, sən də sev barı

**Emin BARATOĞLU.**

## Səməd

*(Şəhid Səməd Alışovun əziz xatirəsinə)*

***Tarixi yaşadan özü də yaşar,***
***Yaşatmaq eşqiylə nəğmələr qoşar.***
***Ölməzlik şərbətin içməyi bacar,***
***O şərbət şəhidlər əmanətidir.***
*Ölməzlik şərbətin nuşi-can edib,*
*Ölməzlik qazandan özünə Səməd.*
*Vətən xidmətinə könüllü gedib,*
*Düz çıxdın andına, sözünə Səməd*
*Aylı gecəm kimi, gündüzüm kimi*
*Qeyrətdən yoğrulmuş dağ-düzüm kimi,*
*Şəhid Mübarizim, Çingizim kimi,*
*Dik baxdın ölümün gözünə Səməd!*
*Andınla, əhdinlə, dönməzliyinlə,*
*Əbədi məşəl tək sönməzliyinlə,*
*Ucalıq gətirdin, ölməzliyinlə*
*Doğma ocağına, közünə Səməd!*
*Məzarın üstündə əlində güllər,*
*Səni vəsf edəcək obalar, ellər.*
*Hələ bundan sonra neçə nəsillər,*
*Fəxr ilə baxacaq üzünə Səməd!*
*Cəliləm, deyirəm bir gün gələcək,*
*Yolun yolsuza da fayda verəcək.*
*Biri görməsə də, beşi görəcək,*
*Necə düşmən döyür dizinə Səməd!*

***Cəlil KOMRADLI.***

## Minnətdarıq biz

Gəncliyin yolunda şam təki yanan,
Gecələr gec yatıb, erkən oyanan,
Məktəbi özünə doğma ev sanan,
Müəllim ömrünə minnətdarıq biz.
Xalqın qayğısıyla ürəyi vuran,
Halallıq üstündə bir yuva quran,
Aramsız işləyib özünü yoran,
Müəllim ömrünə minnətdarıq biz.
Sadə bir həyatı, incə bir qəlbi,
Həyatda ədalət onun tələbi,
Zəngin süfrələrdə tutulan təbi,
Müəllim ömrünə minnətdarıq biz
Şagirdtək bənzərsiz bayrağı olan,
Təmiz vicdanıtək dayağı olan,
Üzündə silinməz bir qayğı olan,
Müəllim ömrünə minnətdarıq biz
Nəcib əməllərdə daim baş olan,
Kitabla, dəftərlə həmsirdaş olan,
Vətənə layiqli vətəndaş olan,
Müəllim ömrünə minnətdarıq biz.

**Əmirxan BURZUYEV.**

## Payız

*Başımıza şabaş tökər ağaclar,*
*Başlanar payızın xəzan günləri.*
*Dağların başını duman, çən alar,*
*Külək yolub tökər açan gülləri.*
*Dağlar qaş-qabağın sallayıb durar,*
*Gözlə görünülməz duman içində.*
*Bir il də beləcə nağıllıq olar,*
*Həzin xatirələr yatar içimdə.*
*Göy üzü görəsən nədən dağıldı?*
*Tez-tez guruldayır, şimşəklər çaxır.*
*Dağların yolları daha bağlıdı,*
*Yağışlar yağdıqca dərəyə axır.*
*İsti yer axtarar köçəri quşlar,*
*Günəş də yandırmaz, düşər soyuqlar.*
*Yam-yaşıl libasın atar çöl, çəmən,*
*Beləcə çıl-çıplaq qalar ağaclar.*
*Demə ki, əvvəlki tək qalaram mən,*
*Gündüzlər görünən şəfəqsiz Ayam.*
*Xəzan yarpağı tək saralaram mən,*
*Deməк, mən də ömrün payızındayam*

***Aşot UDİNOĞLU.***



## Gecələr

Qaranlıq işığın yerini alıb,
Təbiət səssizcə sükuta dalıb,
Səs-səmir kəsilib çöllər boş qalıb,
Siz deyin mən gedim hara, gecələr?
Uyumaq istərəm, yuxum gəlməyir,
Ürəyim zülmətin səsin dinləyir.
Sınıq kaman təki həzin inləyir,
Niyə məni saldın dara, gecələr?
Nurlu sabahlardır, ümidim mənim,
Gecələr çoxalar kədərim, qəmim.
Zülmətdə göyərməz, gülüm, çəmənim,
Mənə nurlu günlər, ara gecələr!

**Pərvanə AĞAYEVA.**